# Azərbaycan Respublikasının
# Nazirlər Kabineti

## Qərar № 94

## Bakı şəhəri, 3 aprel 2014-cü il

## "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətini təmin etmək məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanının icrası ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasında ticarət, məişət və digər növ xidmət (iş görülməsi, xidmət göstərilməsi) Qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 aprel tarixli 80 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 288; 1999, № 1, maddə 48; 2001, № 1, maddə 74; 2003, № 7, maddə 390; 2004, № 3, maddə 193; 2009, № 1, maddə 32) ləğv edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2014-cü il 3 aprel
tarixli 94 nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

# Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət

# QAYDALARI

## 1. Ümumi müddəa

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquq-larının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətini təmin təmin etmək məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanının 2.3-cü bəndinin icrası ilə bağlı hazırlanmışdır və istehlakçılarla (alıcılarla) Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər (o cümlədən, satıcılar) arasında alqı-satqı və digər xidmətlərin göstərilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

## 12. Audiovizual əsərlərin, fonoqramların nüsxələrinin və elektron-hesablayıcı maşınları üçün proqramların satışının xüsusiyyətləri

12.1. Kasetlərə, disklərə və digər videodaşıyıcılara köçürülmüş əsərlərin, fonoqramların nüsxələrinin və elektron-hesablayıcı maşınları üçün proqramların satışı zamanı satıcı istehlakçıya bu Qaydaların 5.10-cu bəndində nəzərdə tutulan məlumatlardan əlavə satışa təqdim olunan belə malların hər biri üzrə aşağıdakı məlumatları da çatdırmalıdır:

12.1.1. audiovizual əsərlərin, fonoqramların, elektron-hesablayıcı maşınları üçün proqramların (onların nüsxələrinin) istehsalçısının adı, ünvanı, həmçinin belə malların nüsxələrinin hazırlanması, çoxaldılması üçün lisenziyası və onun nömrəsi;

12.1.2. videodaşıyıcıların texniki xarakteristikası (videokasetin, diskin növü, videosiqnal sistemi, səsin yazılma sistemi);

12.1.3. müəlliflik hüququ və (və ya) əlaqəli hüquqlar əldə edən haqqında məlumatlar;

12.1.4. elektron-hesablayıcı maşınları üçün proqramların qeydə alınma nömrəsi (əgər qeydə alınmışdırsa).

12.2. Bu Qaydaların 12.1-ci bəndində göstərilən məlumatlarla yanaşı film nüsxələrinin satışı zamanı satıcı istehlakçıya aşağıdakı məlumatları da çatdırmağa borcludur:

12.2.1. filmin, çəkildiyi ölkənin və studiyanın adı;

12.2.2. filmin buraxıldığı il;

12.2.3. film haqqında əsas məlumatlar (hansı janrda olması, müəllifi, rejissoru, bəstəkarı, baş rolların ifaçıları və başqaları haqqında qeydlər);

12.2.4. filmin həcmi (dəqiqə ilə);

12.2.5. filmin nüsxələrini hazırlayanların, videodaşıyıcılara köçürənlərin (filmin tirajını həyata keçirən təşkilatın) adı və hüquqi ünvanı;

12.2.6. prokat şəhadətnaməsinin verilməsi tarixi və nömrəsi;

12.2.7. yaşa görə tamaşaçı auditoriyasına olan məhdudiyyət haqqında tövsiyə (əgər varsa).

12.3. Videodaşıyıcılara köçürülmüş filmlərin nüsxələri ticarət zalına verilməzdən əvvəl yoxlanılmalıdır (qablaşdırma tamlığı və üzərində onu hazırlayan haqqında məlumatların olması).

12.4. Haqqı ödənilmiş malın istehlakçıya verilməsi zamanı satışı həyata keçirən şəxs onun üzlüyünün (qabının) bütövlüyünü yoxlamalı, lazım gəldikdə isə istehlakçının tələbi ilə filmdən fraqmentlərə baxmağa şərait yaratmalıdır.

12.5. Videodaşıyıcılara köçürülmüş filmlərin nüsxələrinin satışı onun istehsalçısı tərəfindən hazırlanmış üzlükdə (qabda) həyata keçirilməlidir.